# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 208** **Bakı şəhəri, 15 aprel 2024-cü il**

**"Qarabağ Universitetinin yaradılması haqqında"**

Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 noyabr tarixli 4182 nömrəli Sərəncamının qəbul edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi, Azərbaycan SSR Nazirlər Sovetinin "Stepanakert şəhərində Pedaqoji İnstitutun yaradılması haqqında" 1973-cü il 28 noyabr tarixli 377 nömrəli və "Sovet Azərbaycanın 60 illiyi adına Stepanakert Pedaqoji İnstitutunun müvəqqəti bağlanılması haqqında" 1988-ci il 3 noyabr tarixli 393 nömrəli qərarlarının ləğv edilməsi barədə Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Qarabağ Universitetinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 noyabr tarixli 4182 nömrəli Sərəncamının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 14 dekabr tarixli 235 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 12, maddə 1117 (Cild I); Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 23 fevral tarixli 97 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Doktoranturalar (adyunkturalar) yaradılan Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin, elmi müəssisə və təşkilatların Siyahısı"nın "Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi üzrə" bölməsinə aşağıdakı məzmunda 18-1-ci hissə əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| 18-1. | Qarabağ Universiteti | fəlsəfə doktoru üzrə | - |

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 15 iyul tarixli 118 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 7, maddə 745 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki qurumların Siyahısı"nın "Ali təhsil müəssisələri" bölməsinə aşağıdakı məzmunda 21-ci hissə əlavə edilsin:

| | |
|---|---|
| 21. | Qarabağ Universiteti |

**3.** "Stepanakert şəhərində Pedaqoji İnstitutun yaradılması haqqında" Azərbaycan SSR Nazirlər Sovetinin 1973-cü il 28 noyabr tarixli 377 nömrəli Qərarı ləğv edilsin.

**4.** "Sovet Azərbaycanın 60 illiyi adına Stepanakert Pedaqoji İnstitutunun müvəqqəti bağlanılması haqqında" Azərbaycan SSR Nazirlər Sovetinin 1988-ci il 3 noyabr tarixli 393 nömrəli Qərarı ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

Xalq qəzeti .- 2024.- 17 aprel, № 76.- S.6.